**ODLAR YURDU UNİVERSİTETİ**

**“İqtisadiyyat və idarəetmə” fakültəsi**

**“İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrası**

**Bakalavriat səviyyəsinin**

**050404 – “Dövlət və bələdiyyə idarəetməsi”**

**ixtisası üzrə**

# TƏHSİL PROQRAMI




**Bakı – 2020**

**ODLAR YURDU UNİVERSİTETİ**

**Bakalavriat səviyyəsinin**

**050404 – “Dövlət və bələdiyyə idarəetməsi”**

**ixtisası üzrə**

# TƏHSİL PROQRAMI

*Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin F-343 nömrəli 09.07.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin 050404– Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə Təhsil Proqramı əsasında hazırlanmış, Odlar Yurdu Universitetin Elmi Şurasının 03.09.2020-ci il tarixli (protokol №1) iclasında təsdiq edilmişdir.*

**050404 - “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasının ümumi xarakteristikası**

“Dövlət və bələdiyyə idarəetməsi” ixtisası tələbələrə idarəetmə nəzəriyyəsi sahəsində geniş iqtisadi bilikləri, eləcə də müəssisənin fəaliyyətini effektiv planlaşdırmağı, kollektivi idarə etməyə imkan verən peşəkar və inzibati bacarıqlar öyrədir. “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası universitetlərin iqtisadiyyat və idarəetmə fakültələrinin tərkibində olan ixtisasdır. Bu ixtisas tələbələrin ümumi idarəetmə biliklərinə yiyələnməsini təmin edir və özəl təşkilatların, dövlət orqanlarının ən səmərəli idarə edilməsini öyrədir. Səmərəli idarəetmə forması dedikdə, hər bir təşkilatın qarşısına qoyduğu müəyyən məqsədlərə minimum resurs istifadəsi ilə çatması nəzərdə tutulur.

“Dövlət və bələdiyyə idarəetməsi” ixtisasının məzunları normativ – hüquqi aktların layihələrinin işlənib hazırlanması, büdcə planlaşdırılması, dövlət orqanları və KİV-lər arasında əlaqə qurulması, dövlət və bələdiyyə orqanlarında işlərin təşkilini və idarəetmənin sosial-iqtisadi inkişafın tələblərinə uyğun təkmilləşdirilməsi kimi sahələr üzrə ixtisaslaşırlar.

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050404 - “Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatına uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir; Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq; - Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **050404 - “Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;

- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;

- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;

- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;

- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;

- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;

- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;

- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;

- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;

- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətina;

- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;

- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

- Mürəkkəb sistemləri təhlil etmək, əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemlər arasında əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək (sistemli düşüncə kompetensiyası).

- Gələcəyin (mümkün, ehtimal edilən və arzu olunan) fərqli variantlarını dərk etmək və qiymətləndirmək qabiliyyəti, gələcək haqqında aydın fikir formalaşdırmaq, fəaliyyyətin mümkün nəticələrini qiymətləndirmək, risk və baş verən dəyişiklkləri nəzərə almaq (proqnostik kompetensiya).

- Yerli və daha yüksək səviyyələrdə davamlılığın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı (strateji baxış kompetensiyası).

- Başqalrından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq (empatiya qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak (kollektiv iş kompetensiyası).

- Qəbul edilmiş norma, yanaşma və fikirləri təhlil etmək, öz baxışlarını və fəaliyyətini kritik qiymətləndirmək, davamlı inkişaf məsələləri ilə bağlı diskussiyalarda öz mövqeyini müdafiə etmək (kritik düşüncə kompetensiyası).

- Cəmiyyətdə öz rolunu kritik qiymətləndirmək (özünüdərketmə kompetensiyası).

- Mürəkkəb problemlərin həlli məqsədilə problemə yönəlik fərqli yanaşmalardan istifadə bacarığı, sadalanan kompetensiyalar əsasında kompleks və ədalətli qərarların qəbulu (problemin kompleks həlli kompetensiyası).

- Fərqli baxış və yanaşmaların dərk edilməsi və kompleks təhlili, geniş inteqrasiya və dünyada artan müxtəlifliyin fərqli perspektivlərinin ümumiləşdirilməsi (multikultural yanaşma və açıqlıq).

- Sahələrarası yanaşmaların formalaşdırılması və qərarların qəbulu bacarığı (sahələrarası kommunikasiya).

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:

- Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1)

- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək; (PK-2)

- Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; (PK-3)

- Makroiqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq; (PK-4)

- Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək. (PK-5)

- İşində ümumi porifilli və ixtisaslaşdırılmış proqaram təminatından (Excel, Word, Power Point, Photoshop və ya analitik proqramlardan hər hansı biri ilə (SPSS, Stata, Python kimi proqramlarla) işləmək, sadə analizləri etməyi bacarmalı; (PK-6)

- İqtisadi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq; (PK-7)

- Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq (PK-8)

- İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9)

- İdarəetmə və təşkilatla bağlı baza səciyyəli biliklərə, təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasını müəyyən etməyə yiyələnmə və IV sənaye inqilabı dövrünün qeyri müəyyənliklərini bilmək, münaqişəli situasiyaların qarşını almağı və onları həll etməyi, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək üçün lazımi biliklərə sahib olmaq; (PK-10)

- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilməli, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmalı, eləcə də komanda işinin qurulmasını bilməli; liderlik prinsiplərini anlamalıdır; (PK-11)

- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq (empatiya), qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak; (PK-12)

- Bələdiyyə idarəçiliyinin təşkili prinsiplərini, bələdiyyə xidməti təşkilatların xüsusiyyətlərini bilmək; bələdiyyə xidmətində səmərəliyin artırılması imkanlarını bilmək; yerli özünüidarəetmə orqanlarında fəaliyyətin planlaşdırılması metodlarını bilmək və funksiyonal təhlilləri aparmağı bacarmaq, gələcəkdə bərqərar olacaq IV sənaye inqilabının qeyri-müəyyənliklərini bilmək və bələdiyyənin missiyasını, niyyətini, məqsəd və strategiyasını müəyyən etməyi yiyələnməlidir; (PK-13)

- İnkişaf anlayışı və ölkə, ərazilərin hazırkı və gələcək inkişafının qiymətləndirilməsini bilmək; İnsan potensialının formalaşması siyasətini bilməli, biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi bacarığına yiyələnməli; İnsan inkişafı və ekoloji sivilizasiya naminə iqtisadi, sosial və təbii ətraf mühitin idarə edilməsi bacarıqlarına yiyələnməli; Davamlı insan inkişafını qiymətləndirən əmsall göstəricilərin hesablanmasını bilmək (PK-14)

- Siyasətin əsas formalarını bilmək; Politologiya və onun cəmiyyətdə rolu ilə bağlı baza biliklərinə yiyələnmək; Siyasi partiya və onun əsas funksiyalarını bilmək; Dövlət siyasətinin əsaslarını və yeni dövr dövlət siyasətinin aspektlərini bilmək; Beynəlxalq münasibətlərin müasir inkişaf istiqamətlərini bilmək; Milli təhlükəsizliklə bağlı biliklərə yiyələnmək; (PK-15)

- Davamlı və inklüziv inkişafın müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindən olmasını bilmək; dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahını yüksəldilməsini təmin edən inklüziv inkişafı təmin edən amillərini və onların idarəetmə yollarını bilmək; beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilləri araşdıra bilmək; davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarəedilməsi sahəsində bilik və bacarıqlara yiyələnmək. (PK-16)

- Dövlət və bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; Dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatı mənimsəmək, dövlət qulluğu vəzifəsi və dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluğunun qanunvericilik bazasını bilmək; dövlət idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək. (PK-17)

- İnsan resurslarından səmərəli istifadə etməyə və kollektivdə əlverişli sosioloji-psixoloji mühit yaratmağa yiyələnməli; Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilməli, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmalıdır.(PK-18)

- Regional idarəetmənin xüsusiyyətlərini və regional problemləri bilmək; regional idarəetmənin elmi əsaslarını bilməklə, ərazi və sahə idarəedilməsinin təşkili bacarıqlarına yiyələnmək; regional idarəetmədə qabaqcıl təcrübəni mənimsəmək, regional idarəetmə metodlarını, elmi-texniki tərəqqinin regional idarəedilməsi formalarını bilmək. (PK-19)

- Strateji idarəetmənin məktəblərini bilmək və situasiyaların strateji təhlilini aparmaq bacarmaq; qloballaşmanın strateji aspektlərini mənimsəmək; təşkilatın niyyət və məqsədlərini müəyyənləşdirməyi bacarmaq; strateji idarəetmə üsullarina yiyələnməklə, gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasını vaxtında verə bilmək bacarığını yaratmaq.(PK-20)

- Yerli və daha yüksək səviyyələrdə inkişafın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı; (PK-21)

## 3. Təhsil Proqramının strukturu

3.1. **050404 - "Dövlət və bələdiyyə idarəetməsi"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS kredit |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| **1** | **Azərbaycan tarixi**<br>Bu fənn ən qədim dövrlərdən başlayaraq müasir dövrədək Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun mərhələlərini ardıcıllıqla öyrənir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün bütün tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Tarixi keçmişimizdən yararlanmaqla yanaşı əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nətica çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | **5** |
| **2** | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik va işgüzar yazı bacarıqlarının aşılanmasına xüsus diqqət yetirilməlidir. | **4** |

| | | |
|---|---|---|
| **3** | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | **15** |
| **4** | **Seçmə fənlər**<br>(Seçmə fənlar ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | **6** |
| **4.1** | **Fəlsəfə**<br>Bu fənndə fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı, hərəkət, məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi, ictimai həyatın əsas sferaları, iqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi baxışları, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir. | **3** |
| | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | |
| | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Bu fənn Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları ilə əlaqədar mövzuları öyrənir. | |
| | **Məntiq**<br>Bu fənn insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkIdə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| | **Etika**<br>Bu fənndə etik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və | |

| | | |
|---|---|---|
| | fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika və peşə etikası haqqında məlumat verilir. | |
| | **Multikulturalizmə giriş**<br>Multikulturalizm fənninin mahiyyəti və əhəmiyyəti, Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələri, multikulturalizmin sosial-iqtisadi inkişafa təsirləri, multikulturalizmin xarici siyasətə təsirləri, Multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etmək, Azərbaycan multikulturalizmi ilə dünya multikulturalizm nümunələrinin müqayisəli təhlilini əhatə edir. | |
| **4.2** | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>Bu fənndə verilən, informasiya və bilik anlayışları, onların xassələri, xarakteristikaları, əlifbalar, sistemlər, dillər, say sistemləri, kodlaşdırma sistemləri, informasiyanın kodlaşdırılması, hesablama texnikasının təşəkkülü, inkişafı, fərdi kompyuterlərin texniki təminatı, əsas və periferiya qurğuları, informasiya proseslərinin avtomatlaşdırılması alqoritmləri, fərdi kompyuterlərin proqram təminatı, əməliyyat sistemləri, Windows ƏS., Windows ƏS-nin standart proqramları, tətbiqi proqram təminatı, Ms Office paketi haqqında, mətn tipli informasiyaların emalı, Ms Word mətn redaktoru, kompyuter qrafikası, Qrafik redaktorlar, Ms Power Point qrafik redaktoru, ədəd tipli informasiyaların emalı, Ms Excel elektron cədvəli, verilənlər Bazası, Baza modelləri. VBİS-lər, informasiya sistemləri, Relyasion VBİS-lər, Ms Access VBİS, informasiyanın şəbəkə email, Kompüter şəbəkələri, Lokal şəbəkələr. Şəbəkə topologiyaları, şəbəkə arxitekturası, OSİ modeli, Protokollar, ünvanlaşma, qlobal informasiya infrastrukturu İnternet, informasiya təhlükəsizliyi, informasiya mühafizəsi ilə əlaqədar mövzular öyrənilir. | **3** |
| | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | |
| | **Sahibkarlığın əsasları və biznesə giriş**<br>Bu fənndə sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi, biznesin təşkilati- hüquqi formaları, GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti, kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı, uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi ilə əlaqədar mövzular öyrənilir. | |
| | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri, Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri, siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları, siyasi elita, siyasi sistem nəzəriyyəsi, siyasi rejimlər. siyasi partiyalar və partiya sistemləri, demokrasiya: əsas təsisatlar, parlament, seçki sistemləri, dövlət, siyasi şüur və siyasi | |

| | | |
|---|---|---|
| | ideologiya, siyasi mədəniyyət, vətəndaş cəmiyyəti, dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər, modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi, siyasi texnologiyalar, siyasi tədqiqatlar və siyasi təhlil, siyasi qərarların qəbulu, beynəlxalq münasibətlərin politologiyası, beynəlxalq siyasətin qlobal problemləri, dövlətin xarici siyasət fəaliyyəti ilə əlaqədar mövzular öyrənilir. | |
| | **İxtisas fənləri** | **120** |
| **5** | **Dövlət idarəçiliyi nəzəriyyəsi**<br>Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini, dövlət idarəçiliyinin təşkili prinsiplərini, dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını öyrədir. | **10** |
| **6** | **Mikroiqtisadiyyat**<br>Iqtisad subyektlərin mənfəəti və faydasının maksimumlaşdırmaq baxımından davranışlarnı öyrənir müvafiq bazar raqabəti modellərindən ev təsərrüfatlari və firmaların qəbul etdikləri qərarları şərtləndirən amilləri təhlil edilir, iqtisadi ehtiyatların səmərəli istifadəsində bazar mexanizminin üsütünlükləri və çatışmazlıqları göstərilir. | **8** |
| **7** | **Makroiqtisadiyyat**<br>İqtisadi ehtiyatların bütövlükdə rasional istifadə edilməsi baxımından ölkədə dayanıqlı iqtisadi artımın va makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadi ehtiyatların tam və səmərəli istifadə edilməsi, işsizliyin və inflyasiyanın minimumlaşdırılması, xarici iqtisadi əlaqələrin optimallaşdırılmasının nəzəri və praktiki məsələləri təhlil edilir. Problemlərin həll edilməsində dövlətin iqtisadi siyasətinin istiqamətləri göstərilir | **8** |
| **8** | **Xətti cəbr və riyazi analiz**<br>"Xətti cəbr və riyazi analiz" fənni "Xətti cəbr" və "Riyazi analiz" bölmələrindən ibarətdir. "Xətti cəbr" xətti tənliklər, xətti faza, xətti çevirma kimi xətti təbiətə malik obyektləri, "Riyazi analiz" isə diferensial, inteqral hesabının köməkliyi ilə funksiya və dəyişən kəmiyyətləri öyrənir. | **6** |
| **9** | **Ehtimal nəzəriyyəsi və riyasi statistika**<br>"Ehtimal nəzəriyyəsi və riyazi statistika" fənni "Ehtimal nəzəriyyəsi” və "Riyazi statistika" bölmələrindən ibarətdir. "Ehtimal nəzəriyyəsi" təsadüfi hadisələrin baş verməsinin riyazi ganunauyğunluqlarını, "Riyazi statistika" isə statistik qanunauyğunluqların müəyyən edilməsi məqsədi ilə məlumatın yığılmasının, emalının və müşahidələrin nəticələrinin interpretasiyasının riyazi üsullarını öyrənir. | **4** |
| **10** | **İnformasiya kommunikasiya texnologiyaları**<br>Bu fənn gələcək mütəxəssislərə müasir informasiya proseslərinin həyata keçirlməsində istifadə olunan üsul va vasitələr haqqında geniş məlumat verir, iqtisadi proseslərin ayrılmaz tərkib hissəsi olan yeni informasiya və internet texnologiyaları üzrə müasir bilikləri aşılayır. | **8** |
| **11** | **Statistika**<br>Bu fənn keyfiyyətcə müəyyən edilmiş kütləvi sosial-iqtisadi hadisə və | **8** |

| | | |
|---|---|---|
| | proseslərin kəmiyyət tərəfini, onların tərkibini, bölgüsünü, konkret məkan və zaman şəraitində mövcud qarşılıqlı asılılıqlarını və qanunauyğunluqlarını öyrənir. | |
| **12** | **Menecment**<br>Bu fənn menecmentin əsas funksiyalarını, menecerlərin rollarını, təşkilati quruluşları və onların hər birinin üstün və mənfi cəhətlərini, liderlik növlərini öyrənir, təşkilatlardakı qrup və komanda dinamikasın, təşkilat mədəniyyətini, müxtəlifliyin faydalarını tədqiq edir. | **7** |
| **13** | **Siyasi elmin əsasları**<br>Siyasətin əsas formalarını, politologiya və onun cəmiyyətdə rolu ilə bağlı baza biliklərini, siyasi partiya və onun əsas funksiyalarını, dövlət siyasətinin əsaslarını və yeni dövr dövlət siyasətinin aspektlərini öyrədir. | **6** |
| **14** | **İnsan inkişafının əsasları**<br>İnkişaf anlayışı və ölkə, ərazilərin hazırkı və gələcək inkişafının qiymətləndirilməsini, insan potensialının formalaşması siyasətini, biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsini, davamlı insan inkişafını qiymətləndirən əmsalları və göstəricilərin hesablanmasını öyrədir. | **4** |
| **15** | **Dövlət qulluğu**<br>Dövlət və bələdiyyə qulluğu anlayışım, onun vəzifələri və prinsiplərini, dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatın, vazifələrin təsnifatı, dövlət qulluğu sisteminin inkişaf məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərini öyrədir. | **8** |
| **16** | **Bələdiyyə idarəçiliyi**<br>Bələdiyyə idarəçiliyinin təşkili prinsiplərini, bələdiyyə xidməti təşkilatların xüsusiyyətlərini, bələdiyyə xidmətində səmərəliyin artırılması imkanlarını, yerli özünüidarəetmə orqanlarında fəaliyyətin planlaşdırılması metodlarını və funksiyonal təhlilləri aparmağı, gələcəkdə bərqərar olacaq IV sənaye inqilabının qeyri-müəyyənliklərini və bələdiyyənin missiyasını, niyyətini, məqsəd va strategiyasını müəyyən etməyi öyrədir. | **8** |
| **17** | **Regional idarəetmə**<br>Regional idarəetmənin xüsusiyyətlərini və regional problemlərini, regionun ərazi və sahə idarəedilməsinin təşkilini, qabaqcıl təcrübəni, regional idarəetmə metodlarını, dövlət proqramlarının icra olunmasının yekunlarını təhlil etmək və əldə edilən nəticələrinin səmərəliliyini qiymətləndirməyi öyrədir. | **6** |
| **18** | **Dövlət idarəçiliyində etika**<br>Dövlət idarəçiliyində etik qaydaların tətbiqi üzrə praktiki bilikləri və dövlət idarəçiliyində etik davranış prinsiplərini, bu prinsiplərə uyğun hərəkət etmə davranışının formalaşmasını, dövlət qulluğu sistemində mənəvi əxlaqi meyarların rol va yerini müəyyan etməyi öyrədir. | **6** |

| | | |
|---|---|---|
| **19** | **Davamlı və inklüziv inkişafın idarə edilməsi**<br>Davamlı inkişafın müasirliyi, əhəmiyyəti, əsas və prioritet göstəricilərini, davamlı inkişaf konsepsiyasının yaranma tarixinin əsas mərhələlərini, davamlı inkişafın əsas indikatorlarını öyrədir. Inklüziv inkişafın xüsusiyyətləri və əsas göstəricilərini, inklüziv inkişaf prosesinin davamlılığını səciyyələndirən indikatorları, inklüziv inkişafın idarə edilməsində müasir texnologiyaları, Azərbaycanın inklüziv inkişaf perspektivləri öyrədilir. | **6** |
| **20** | **İnsan reurslarının idarə edilməsi**<br>Bu fənn "İnsan resurslarının idarə edilməsinin", onun məqsəd və hədəflərinin nə olduğunu, yüksək ixtisaslı kadrların müəssisəsəyə necə cəlb edilməsini, seçim prosesinin necə aparılmasını öyrənir, müəssisədə performans qiymətləndirilməsi, karyeranın idarəedilməsi, motivasiya və s. kimi funksiyaların işləmə prinsiplərini tədqiq edir. | **4** |
| **21** | **Strateji idarəetmə**<br>Bu fənn təşkilati strategiyaları, xarici və daxili mühit analizinin nəticələri çərçivəsində strategiyaların formalaşdırılması metodlarını öyrənir, icra edilən strategiyaların şirkətin məqsədlərinə nə dərəcədə cavab verdiyini analiz edir. Strateji idarəetmə prosesinin sosial məsuliyyat və etik dəyərlər içərisində həyata keçirilməsinin əsas prinsiplərini tədqiq edir. | **6** |
| **22** | **Milli təhlükəsizlik**<br>Milli təhlükəsizliyin nəzəri əsaslarını, milli maraqlar və milli mənafeyin qorunması ilə bağlı nəzəri konsepsiyani, milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və ehtiyatlarını, beynəlxalq təhlükəsizlik sistemini, Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərini öyrədir. | **4** |
| **23** | **Mülki müdafiə**<br>Bu fənn çərçivəsində müxtəlif qlobal FH-rin sürətlə artdığı müasir dövrdə insanın ətraf mühitində təhlükəsizliyinə və sağlamlığının qorunmasına yönəldilmiş qaydalar tədris olunur. Bu fənn hamçinin zərərli amillərin aşkara çıxarmasını və eyniləşdirməsini, insanın mühafizəsinin metod va vasitələrini, zərərli va təhlükəli amillərin minimum dərəcəyə qədər azaldılması yollarını, sülh va müharibə dövrü baş verən qəza hallarının, fəlakətlərin nəticələrini aradan qaldırmaq üçün tədbirlərin görülməsi ilə bağlı məsələləri əhatə edir. | **3** |
| | **ATM tərəfindən müəyyən edilən fənlər:** | **60** |
| **23.** | **Seçmə fənn:** | **4** |
| 23.1 | **İşgüzar ingilis dili**<br>İngilis dili beynəlxalq dil olmaqla yanaşı, həmçinin əsas işgüzar dildir. Bu baxımından "İşgüzar ingilis dili"nin yüksək səviyyədə öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu fənn vasitəsilə tələbələr şifahi igilis dili üzrə işgüzar ünsiyyət bacarıqları və özünə inam artırmaq, müzakirə və danışıqlar üçün dil bacarıqlarını inkişaf etdirmək, ingilis dili ölkələrinin biznes mədəniyyətini öyrənmək imkanına yiyələnirlər. "İşgüzar ingilis | |

| | | |
|---|---|---|
| | dili" fənninin qarşısına qoyulan əsas məqsəd xarici dilə praktik olaraq hərtərəfli yiyələnmiş ingilis dilli mütəxəssis hazırlamaqdan ibarətdir. | |
| 23.2 | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Bu fənn Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları ilə əlaqədar mövzuları öyrənir. | |
| 24 | **Seçmə fənn:** | **6** |
| 24.1 | **İşgüzar yazışmalar**<br>İşgüzar yazışmalar üzrə işlərin təşkili, xidməti sənədlərin hazırlanması, sənədlərin tərtibinə dair ümumi qaydalar, təşkilati-sərəncamverici sənədlər, onların tərtibi və rəsmiləşdirilməsi, məlumat-arayış sənədləri və onların tərtibi qaydaları, aktların idarəetmədə rolu və rəsmiləşdirilməsi, kadr sənədləri və onların tərtibi, maliyyə-hesabat, bank və vergi əməliyyatları üzrə sənədləşmələr, kommersiya sahəsi üzrə sənədlər və onlarla işin təşkili, əmək və əhalinin sosial müdafiəsi orqanlarında kargüzarlığın aparılması qaydası və müraciətlər üzrə işgüzar yazışmalar, beynəlxalq işgüzar yazışmalar, idarələrdə sənədlərin dövriyyəsi, qeydiyyatı və icrasına nəzarət, sənədlərin sistemləşdirilməsi və onların arxivə təhvil verilməsinin təşkili, yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin işgüzar yazışmaları, kadrlara aid olan sənədlərin saxlanılma sistemi, məktub və ərizələrin üzərindəki sərəncamların icra olunmasına dair nəzarət və vətəndaşların qəbulu ilə bağlı məsələləri əhatə edir. | |
| 24.2 | **Kommersiya fəaliyyətinin əsasları**<br>Kommersiya əlaqələrinin inkişafı, kommersiya fəaliyyətinin etikası və işgüzar danışıqların təşkili, mal çeşidinin formalaşmasının kommersiya strategiyası, kommersiya fəaliyyəti sferası, kommersiya riski, kommersiya fəaliyyətində reklam, cəmiyyətlə əlaqələr və onun kommersiya fəaliyyətində rolu, beynəlxalq kommersiya, birja, yarmarka-sərgi və hərrac ticarətinin spesifik xüsusiyyətləri, lizinq, françayzinq, faktorinq, kommersiya müəssisələrinin fəaliyyətinin planlaşdırılması və dövlət tənzimlənməsi, kommersiya fəaliyyətinin idarə edilməsi konsepsiyası, marketinq fəaliyyətinin konsepsiyası ilə bağlı məsələləri əhatə edir. | |
| **25** | **Seçmə fənn:** | **3** |
| 25.1 | **İdarəetmə qərarları**<br>İdarəetmə qərarlarının işlənməsi, qəbulu və reallaşdırılması prosesi, idarəetmə qərarlarının keyfiyyət sistemi və səmərəliliyinin təmini xüsusıyyətləri, idarəetmə qərarlarının optimallaşdırılması, idarəetmə qərarlarının reallaşdırılmasının həvəsləndirilməsi və nəzarət sistemi, idarəetmə qərarlarının modelləşdirilməsi, işgüzar təşkilatlarda strateji | |

| | | |
|---|---|---|
| | qərarların qəbulu sistemi ilə bağlı məsələləri əhatə edir. | |
| 25.2 | **Dövlət sahibkarlığı**<br>Dövlət sahibkarlığı, onun formaları, məqsədləri, dövlət sahibkarlığı sahəsində iqtisadi siyasətin alətləri, sosial-iqtisadi problemlərin diaqnostikası, təhlili və həllinin müasir üsulları, dövlət sahibkarlığı sahəsində qərarların qəbulu üsulları və onların praktikada tətbiqi, dövlət-özəl tərəfdaşlıq, dövlət mal və xidmətlər bazarı, dövlət sahibkarlığının səmərəliliyinə təsir edən amillər, onun təkmilləşdirilməsi yolları, dövlət müəssisələrinin sahibkarlıq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, dövlət sahibkarlığının sosial-iqtisadi səmərəliliyi ilə bağlı məsələləri əhatə edir. | |
| **26.** | **Seçmə fənn:** | **4** |
| 26.1 | **Dövlət təşkilatlarında menecment**<br>Müasir dövlət idarəçiliyinin nəzəriyyəsi və mexanizmləri, dövlət və bələdiyyə maliyyəsinin idarə olunması texnologiyaları, dövlət və bələdiyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, dövlət kadr siyasəti və dövlət qulluğunda kadr auditi, sosial infrastrukturun inkişafının idarə edilməsi, elektron hökumət, dövlət və bələdiyyə xidmətlərinin göstərilməsinin tənzimlənməsi, dövlət idarəetmə texnologiyaları, iqtisadiyyatın dövlət sektorunda idarəetmə təcrübəsi ilə bağlı məsələləri əhatə edir. | |
| 26.2 | **İdarəetmənin sosialogiyası və psixologiyası**<br>İstehsalın idarə edilməsinin sosial-psixoloji metodları, əmək kollektivi və kollektiv daxili münasibətləri, əmək kollektivində şəxslərarası münasibətləri, sosial təşkilatın strukturu, əmək kollektivində münaqişələr, onları xəbərdaretmə və həlli metodları, idarəemə prosesində işgüzar kommunikasiyanın (ünsiyyətin) psixologiyası, əməyin motivasiyasının və rəhbərliyin sosial-psixoloji aspektləri, idarəetmə təcrübəsində sosial-psixoloji metodlar, əmək kollektivlərinin idarə edilməisndə sosioloji tədqiqatlar, istehsal təşkilatının sosioloji xidməti və kollektivin sosial inkişafı prosesləri, sosial münasibətlərin tənzimlənməsinin xarici nəzəriyyə və təcrübəsinin təhlili, sosial-psixoloji metodların idarəetmə prosesində effektivliyi ilə bağlı məsələləri əhatə edir. | |
| **27.** | **Seçmə fənn:** | **5** |
| 27.1 | **Firmanın iqtisadiyyatı**<br>Sahibkarlığın forma və növləri, sahibkarlıq riski, firmada (müəssisədə) istehsal prosesi və onun təşkili, firmanın kadrları, əmək məhsuldarlığı, əmək haqqı, əsas fondları və istehsal gücü, dövriyyə fondları və dövriyyə vəsaitləri, istehsal xərcləri və məhsulun maya dəyəri, mənfəəti, rentabellik göstəriciləri, maliyyəsinin idarəedilməsi, investisiya və innovasiya fəaliyyəti, istehsal-təsərrüfat fəaliyyətinin planlaşdırılması, xarici-iqtisadi fəaliyyəti, sanasiya və firmanın müflisləşməsi ilə bağlı məsələləri əhatə edir. | |

| | | |
|---|---|---|
| 27.2 | **Dövlət xəzinədarlığı**<br>Dövlət büdcə uçotunun mahiyyəti və onun xüsusiyyətləri, büdcə təşkilatlarının gəlir və xərclərinin dövlət xəzinədarlıq agentliyi vasitəsilə kassa icrasının uçotu, Azərbaycanda dövlət xəzinədarlıq işlərinin təşkili və tətbiqinin mərhələləri, dövlət xəzinədarlıq sistemində dövlət öhdəçiliklərinin qəbulu və icrası prosesi, büdcə təşkilatları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotunun təşkili, kassa vəsaitlərinin planlaşdırılması və idarə edilməsi, dövlət xəzinədarlığı sistemində büdcə xərclərinin icra edilməsinin təşkili və maliyyə nəzarəti, dövlət xərcləri üzərində xarici auditin təşkili, xəzinədarlığın idarə edilməsinin informasiya sistemi, dövlət xəzinədarlıq sisteminin təkmilləşdirilməsi istiqamətləri ilə bağlı məsələləri əhatə edir. | |
| **28.** | **Seçmə fənn:** | **4** |
| 28.1 | **Azərbaycan iqtisadiyyatı**<br>Bu fənn Azərbaycan iqtisadiyyatının makroiqtisadi mənzərəsini, sosial iqtisadi göstəricilərin dinamikasını öyrənir, iqtisadi siyasətin əsas konturlarını, sektorial və sektorlar arasındakı əlaqaləri təhlil edir. Həmçinin milli iqtisadiyyatın beynalxalq ticarətdəki mövqeyini və mövcud vəziyyətə uyğun müvafiq iqtisadi siyasət təkliflərini təhlil edir. | |
| 28.2 | **Korporativ idarəetmə**<br>Korporativ menecmentin modelləri və onların xarakteristikası, korporasiyaların fəaliyyət mexanizmi və icraedici orqanı, səhmdar cəmiyyətləri və səhmdarların ümumi yığıncağı, Korporativ strukturların idarə edilməsində Direktorlar Şurasının və Katibliyin fəaliyyətinin təşkili, korporativ menecmentdə informasiyaların açıqlanması sistemi və korporativ münaqişələr, korporativ mədəniyyət, işgüzar etika və nəzarət, sosial məsuliyyət, korporativ menecmentin səmərəliliyinin qiymətləndirilməsi və maliyyə aspektləri, korporativ vergi menecmenti və mülkiyyətin auditi, korporativ idarəetmə sahəsində beynəlxaq təcrübə ilə bağlı məsələləri əhatə edir. | |
| 28.3 | **İctimaiyyətlə əlaqələr**<br>Ictimaiyyətlə əlaqələr (PR) prosesi, ictimai münasibətlərdə imic idarəçiliyi, təbliğatı, Korporativ Sosial Məsuliyyət, müəssisədaxili ictimaiyyətlə əlaqə, böhran hallarının idarə edilməsi, sponsorluq, lobbiçilik, rəqəmsal ictimaiyyətlə əlaqələr ilə bağlı məsələləri əhatə edir. | |
| **29.** | **Seçmə fənn:** | **6** |
| 29.1 | **İnnovasiya menecmenti**<br>Bu fənn innovasiyaların nəzəri təməlini, innovasiyaların idarə edilməsini təşkilatlarda innovasiyanı müəyyənləşdirən faktorları öyrənir, innovativ təşkilati mədəniyyəti, innovasiya strategiyalarını tədqiq edir. | |
| 29.2 | **Layihələrin idarə edilməsi**<br>Bu fənn layihələrin yazılma qayda və üsullarını, layihələrin icra edilmə və qiymətləndirmə mexanizmlərini, layihənin icrası üçün lazım olan resursları və layihənin xərclərini, qarşılaşıla bilinəcək riskləri necə idarə | |

| | | |
|---|---|---|
| | etməyi öyrənir. | |
| **30.** | **Seçmə fənn:** | **6** |
| 30.1 | **Dövlətin investisiya siyasəti**<br>Dövlətin iqtisadi siyasətində investisiya siyasətinin rolu və yeri, investisiya mühitinin formalaşmasında dövlətin rolu, xarici investisiyaların tənzimlənməsi, investisiya və innovasiya inkişaf modelləri, Milli İnnovasiya Sisteminin (MİS) formalaşması, investisiya layihəsinin səmərəliliyinin qiymətləndirilməsi və risklərinin idarə edilməsi, portfel investisiyaların və fond bazarının tənzimlənməsi, intellektual kapitalın və intellektual mülkiyyətin idarə olunması, investisiyanın maliyyələşməsi, kreditləşməsi və onun alternativ yolları ilə bağlı məsələləri əhatə edir. | |
| 30.2 | **Ətraf mühitin iqtisadiyyatı**<br>Bu fənn ətraf mühitlə bağlı fundamental nəzəriyyələri, dayanıqlı inkişaf konsepsiyasının ekoloji aspektlərini öyrənir, ətraf mühitin mühafizəsi siyasətinin meyarlarını və təbii sərvətlərdən səmərəli istifadə təkliflərini təhlil edir. | |
| **31.** | **Seçmə fənn:** | **5** |
| 31.1 | **Sosial sferanın iqtisadiyyatı və idarə olunması**<br>Bu fənn iqtisadiyyatda dövlət sektorunun rolunu və sosial sahələr üzrə dövlət siyasətinin əsaslarını öyrənir, onların maliyyələşmə imkanlarını, fəaliyyətlərin müəyyənləşdirilmiş qurumlar və qaydalar çərçivəsində tənzimlənməsini təhlil edir. Həmçinin sahə üzrə muasir yanaşmaları, inklüziv sosial-iqtisadi siyasəti, institusional yanaşmanın əhəmiyyətini təhlil edir. | |
| 31.2 | **Sosial idarəetmənin əsasları**<br>Cəmiyyətdəki sosial birlik formalarının (siniflər, sosial qruplar, təbəqələr, şəhər və kənd əhalisi) mənafelərinin müdafıəsi, onların cəmiyyətin ümumi mənafeyi ilə əlaqələndirilməsini təmin edən düzgün sosial siyasətin hazırlanması və həyata keçirilməsi, ölkə əhalisini dilini, mədəniyyətini və ənənələrini qoruyan milli siyasətin reallaşdırması, demoqrafıya siyasətinin yeridilməsi (iş qüvvəsinin tələbatına uyğun olaraq əhalinin normal artımı, onun cinsə, yaşa görə bölgüsü nisbəti ilə bağlı məsələlər), sosial planlaşdırma, sosial layihələndirmə, sosial proqnozlaşdırma və sosial uzaq görənlik ilə bağlı məsələləri əhatə edir. | |
| **32.** | **Seçmə fənn:** | **5** |
| 32.1 | **Gömrük işinin təşkili**<br>Azərbaycan Respublikasında gömrük siyasəti və gömrük işinin təşkili, gömrük nəzarətinin növləri, gömrük prosedurları və rəsmiləşdirilməsi, xarici-iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi, gömrük ekspertizası, ödənişləri, dəyəri və onun təyin edilməsi üsulları, valyuta nəzarəti, gömrük işində qeyri-tarif tənzimlənməsi üsulları, gömrük statistikası və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, gömrük | |

| | | |
|---|---|---|
| | orqanlarında hüquq-mühafizə fəaliyyəti, idarəetmənin əsasları və təşkilati strukturları, gömrük sistemində idarəetmə prosesi ilə bağlı məsələləri əhatə edir. | |
| 32.2 | **Bələdiyyə mülkiyyətinin idarə edilməsi**<br>Bələdiyyə mülkiyyətinin idarə edilməsinin normativ- hüquqi bazası, bələdiyyənin daşınmaz əmlak üzrə idarəetmə sistemi, bələdiyyə torpaqlarının idarə edilməsi, bələdiyyə əmlakının idarə edilməsi sistemi, bələdiyyə mülkiyyətinin uçotu və qiymətləndirilməsi prosesi ilə bağlı məsələləri əhatə edir. | |
| **33.** | **Seçmə fənn:** | **5** |
| 33.1 | **Vergitutma**<br>Bu fənn çərçivəsində tələbələrə vergi münasibətləri iştirakçılarının hüquq və vəzifələri, vergilərin hesablanması və ödənilməsi, vergi yoxlamaları, maliyyə sanksiyaları, vergitutmanın formaları və s. məsələlər haqqında zəruri biliklər tədris olunur. | |
| 33.2 | **İqtisadiyyatın tənzimlənməsi**<br>İqtisadiyyatın tənzimlənməsinin nəzəri və metodoloji əsasları, keçid dövründə iqtisadiyyatın tənzimlənməsinin transformasiyası və dövlətin iqtisadi siyasəti, dövlətin iqtisadi siyasətinin mahiyyəti, dövlət bölməsi və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, iqtisadi-sosial proqnozlaşdırmanın əsasları, makroiqtisadi proqnozlaşdırma və planlaşdırmanın əsasları, dövlət sifarişi və kontraktı münasibətlərinin tənzimlənməsi, dövlətin büdcə –vergi, investisiya – innovasiya, struktur və pul-kredit siyasəti, dövlətin antiinfilyasiya siyasəti və qiymətlərin tənzimlənməsi, dövlətin aqrar və sosial siyasəti, sosial infrastrukturun inkişafının dövlət tənzimlənməsi, dövlətin antinhisar siyasəti, iqtisadiyyatın dövlət tənzimlənməsi üzrə beynəlxalq təcrübənin Azərbaycanda istifadə imkanları və mexanizmləri ilə bağlı məsələləri əhatə edir. | |
| **34.** | **Seçmə fənn:** | **7** |
| 34.1 | **Bank işi**<br>Mərkəzi Bankın və kommersiya banklarının fəaliyyətinin təşkili, ödəniş sistemi, bankların aktiv və passiv əməliyyatları, investisiya əməliyyatları, valyuta əməliyyatları, bankların pul və kapital bazarında fəaliyyəti, banklarının vasitəçilik əməliyyatları, bank menecmenti və marketinqi, bank fəaliyyətində risklər, banklarda korporativ idarəetmə sistemi, bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili, banklarda uçot işinin təşkili ilə bağlı məsələləri əhatə edir. | |
| 34.2 | **Büdcə və xəzinə uçotu**<br>Bu fənn büdcə uçotu və hesabatın büdcə prosesində rolu, büdcə və xəzinə uçotunun təşkilinin əsasları və prinsipləri, büdcə təşkilatlarında milli mühasibat uçotu standartları, büdcənin dövlət xəzinədarlıq agentliyi vasitəsilə kassa icrasının uçotu, dövlət xəzinədarlıq sistemində öhdəliklərin qəbulu və malların alışının xəzinə uçotu, büdcədən maliyyələşən təşkilatlarda xəzinə uçotunun təşkili, büdcənin | |

| | | |
|---|---|---|
| | qısamüddətli aktivlərinin uçotunun aparılması, büdcə təşkilatlarında uzunmüddətli aktivlərin uçotu, büdcə təşkilatlarında qısamüddətli və uzunmüddətli öhdəliklərin uçotu, büdcə idarə və təşkilatlarda gəlirlərin, xərclərin və mənfəətin (zərərin) uçotu, büdcə təşkilatlarının maliyyə hesabatlarının tərkib hissələri və onların məzmunu, büdcə təşkilatlarının maliyyə vəziyyəti haqqında və büdcə təşkilatlarının maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlar, əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə hesabat, uçot siyasəti və metodikası, büdcə və xəzinə uçotunda xəzinədarlığın hesab kitabları və mühasibat hesabları, büdcə və xəzinə uçotunun beynəlxalq standartlara keçməsinin zəruriliyi və yekun hesabatı ilə bağlı mövzuları əhatə edir. | |
| | **Təcrübə** | **30** |
| **1.** | **Karyera planlaması**<br>“Karyera planlaması” fənninin tədrisinin əsas məqsədi tələbələrin öz maraqlarının, dəyərlərinin, bacarıqlarının, şəxsiyyətinin, fəaliyyətinin və mənlik anlayışının karyera planlaması ilə bağlı qərarlarla necə əlaqəli olduğunu anlamaq və bununla öz üzərində işləyərək gələcək karyeralarını düzgün istiqamətdə formalaşdırılmasıdır. Həmçinin daha geniş karyera imkanlarını araşdırmaq üçün öz bilik və inamını artıraraq sürətlə inkişaf edən iş bazarlarına, uyğunlaşmağa kömək edəcək. Cari və gələcək işlər üçün karyera məqsədlərini, bacarıqlarını və biliklərini əhatə edən bir karyera inkişaf planı hazırlamaq, istedad və təcrübədən ən yaxşı şəkildə istifadə etməyin öyrənilməsidir. Praktiki təkliflərə, nəzəri modellərə və mövcud empirik dəlillərə əsaslanan qiymətli təlimatların alınması, fənn üzrə bilik və bacalıqlara olan tələblər: Karyera qavrayışı ilə bağlı ilkin bilikləri; Karyera yol xaritəsi mahiyyəti və onun tərtibi; Şəxsin bacarıqları üzrə təhlil və onun inkişaf etdirilməsi yolları; Hədəfə uyğun fəaliyyət planlarının idarə edilməsi; İşğüzar etika, İş axtarma strategiyaları; İş üçün doğru müraciət qaydaları, tövsiyə məktubunun tərtibi; İş müsahibəsinə hazırlığında müxtəlif texnikaları ilə bağlı məsələləri əhatə edir. | **5** |
| **2.** | **Yumşaq bacarıqlar (Soft skills)**<br>Yumşaq bacarıqları şərti olaraq bir neçə qrupa ayırmaq olar: şəxsi bacarıqlar (dərketmə, emosional zəka, refleksiya, məqsədqoyma, zamanın idarəetməsi); kommunikasiya bacarıqları (kütlə qarşısında çıxış etmək, natiqlik, danışıqlar aparmaq, ünsiyyət qurmaq, aktiv idarəetmə, düzgün suallar vermək, mübahisə etmək və s.); sistemlərin qurulması (strateji, sistemli və yaradıcı düşüncə, proseslərin təşkili, insanları idarə etmək bacarığı). Soft skills – müvəffəqiyyətlə ünsiyyət qurmağa imkan verən keyfiyyətlərdir. Onlar iş prosesini qurmağa, habelə karyera pilləkəni üzrə irəliləməyə imkan verirlər. Bacarıq səviyyəsinin təyin edilməsi: STAR modelinə görə davranış müsahibəsi; situasiya müsahibəsi; “İş” üsuluna əsasən müsahibə. Möhkəm yumşaq bacarıqlara sahib olmaq bu gün istənilən işdə çox qiymətli bir şeydir. Soft skills səriştələri: İnsanlarla münasibətlərinizi inkişaf etdirməyə, söhbəti davam | **9** |

| | | |
|---|---|---|
| | etdirməyə və başqaları ilə ünsiyyət qurarkən kritik vəziyyətləri effektiv şəkildə idarə etməyə kömək edən əsas ünsiyyət bacarıqları. Kreativ, tənqidi və analitik düşüncə formalar – yumşaq bacarıqların tərkib elementi kimi. Komanda işinin prinsipləri, komanda ilə işləmə bacarığı və komanda işinin qurulmasında "Team buildinq" və onun təşkili. Liderlik üslubu və liderlərə tələb olunan əsas keyfiyyətlər ilə bağlı məsələləri əhatə edir. | |
| **3.** | **Sərt bacarıqlar (Hard skills)**<br>Sərt bacarıqlar, asanlıqla öyrənilə bilən qabiliyyətlər və ya bacarıq dəstləridir. Sərt bacarıqlar işə uyğun olan texniki keyfiyyətlərdir. Bu bacarıqlar ümumiyyətlə auditoriyada, onlayn olaraq, kitablar və digər materiallar vasitəsilə və ya iş yerində öyrənilə bilər. Onlar işin əsasıdır və xüsusi tədris və sınaq – yanılma yolu ilə inkişaf etdirilir. Sərt istedadlar, işə götürən tərəfindən sınaqdan keçirilə və ya ölçülə bilənlərdir: xarici dildə ünsiyyət qurma bacarığı, satış, affilate (birbaşa satışın onlayn versiyası) marketinq, inventar idarə edilməsi, işi təhlil edən, müəyyən bir kompüter proqramlaşdırma dilində təcrübə. Rəhbərin sərt bacarıqların göstərilməsi, ilk öncə bu planlaşdırma qabiliyyəti, prioritetləri müıyyənləşdirmək, düzgün məqsəd seçmək, göstərişlərin verilməsi və onların yerinə yetirməsinə çatmaq ilə bağlı məsələləri əhatə edir. | **10** |
| **4.** | **İstehsalat təcrübəsi / layihə**<br>İstehsalat təcrübəsinin əsas vəzifələri aşağıdakılardır: tələbənin ali məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək, tələbələri ixtisasının profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək, tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq, tələbələrin SMART texnologiyaları sahəsindəki biliklərini təkmilləşdirmək, tələbələrdə peşə istiqamətlərinə olan meyl və marağı möhkəmləndirmək və şəxsiyyət yönümlü təlim işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək. İstesalat təcrübəsinin məqsədlərinə nail olmaq üçün tələbələr tərəfindən aşağıdakı məsələlərin həll ediməsi həyata keçirilir: təhlil üçün vacib olan məlumatların etibarlı mənbədən olmasının yoxlanılması və təhlil edilməsi, tədqiqatın qısa və orta müddətli perspektivdə effektivliyinin yüksəldilməsinə istiqamətləndirilməsi, peşə bacarıqlarının əldə edilməsi və təkmilləşdirilməsi, ali təhsil müəssisələrində nəzəri təlim illərində qazanmış nəzəri bilikləri genişləndirilməsi və sistemləşdirilməsi. | **6** |

| İxtisas | Ümumi fənlər | İxtisas fənləri (o cümlədən mülki müdafiə) | ATM tərəfindən müəyyən edilən fənlər | Təcrübə | Cəmi |
|---|---|---|---|---|---|
| **050404 - "Dövlət və bələdiyyə idarəetməsi"** | **30** | **120** | **60** | **30** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:
- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

**Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil

proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, programin broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:
- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, komputer əsaslı testlər;
- şifahi təqdimatlar; sorğular:
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

**Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plaqiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramin və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabuslari müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **050404 - "Dövlət və bələdiyyə idarəetməsi"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq IKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə.

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə proses aşağıdakı kimi 4 mərhələdə təşkil oluna bilər: 1) tələbə karyera planlaşdırılmasını doğru tərtib etməyi öyrənməli, 2) eləcə də yumşaq və 3) sərt bacarıqlara yiyələnməli, 4) müəssisə və təşkilatlarda təşcrübə keçməli və ya onlardan daxil olan sifariş layihəsini yerinə yetirməlidir.

8.4. Tələbənin karyera planlaması və yumşaq bacarıqlar fənnlərini mənimsəməsi ona təhsil müddətində özünüinkişaf və fürsətlərin dəyərləndirməsinə imkan yaradacaq. Belə ki, "Karyera planlaması" fənni üzrə kursu mənimsəməklə tələbələr karyera barədə ilkin anlayışları, təhsil müddətində dəyərləndirilməli olan karyera inkişaf fəaliyyətlərini biləcək; karyera yol xəritəsinin tərtib olunmasını və texnikalari, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma

strategiyaları, eləcə də iş üçün doğru müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacaracaq; iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını anlayacaqdır.

"Yumşaq bacarıqlar" fənni sayəsində isə tələbə vaxtının effektiv idarə edilməsini, stress menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını biləcək; problem həll etmə və qərarvermə texnikaları, ictimaiyyət qarşısında çıxış, səlis nitqin inkişaf yolları, bədən dili və doğru təqdimat qaydalarını, eləcə də komanda işinin qurulmasını bacaracaq; liderlik haqqında prinsipləri anlayacaqdır.

“Sərt bacarıqlar” fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacaracaq; iş həyatında şifahi və yazılı kommunikasiya qaydalarını biləcək; rəqəmsal savadlılıq istiqamətindəki əsas nüansları anlayacaq, şəxsi brendin qurulması yollarını biləcəkdir.

8.5. Təcrübənin təşkili iki formada təklif olunacaqdır. Belə ki, tələbələr şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələrə qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Təhsil müddətində mənimsənilmiş karyera planlaması, sərt və yumşaq bacarıqlar sayəsində iş dünyasında uğur qazanma ehtimalları yüksək olacaqdır. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.6. Təcrübənin təşkili barəsində ikinci forma isə tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, şirkət və qurumlarda ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.7. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **050404 - “Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə Təhsil Proqramının məzunları həm özəl, həm dövlət sektorunda idarəetmə, insan resurslarının idarəedilməsi, istehsalın idarəedilməsi, maliyyə, muhasibat, marketinq, tədqiqat və inkişaf, ictimaiyyətlə əlaqələr kimi sahələrdə mütəxəssis olaraq işləyə bilərlər. Eyni zamanda məzunlar menecer, strateji idarəetmə mütəxəsssisi, istehsalat mütəxəssisi, layihələrin idarə edilməsi üzrə mütəxəssis, CEO, CFO, biznes analitik peşələrində işləyə bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. **050404 - “Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan bütün Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

**Tədrisin təşkili və yeni təlim texnologiyaları**
**üzrə prorektor:** **dos. Q.A.Qafarov**

**Tədris və metodiki işlər departamentinin**
**rəhbəri:** **İ.U.Rəhimov**

**İqtisadiyyat və iqtisadi münasibətlər**
**kafedrasının müdiri:** **i.e.d., prof. E.Y.Məmmədov**

**Əlavə 1**

**050404 - “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasında ixtisas fənləri, ATM tərəfindən müəyyən edilən fənlər və təcrübə üzrə peşə kompetensiyaları**

| "Dövlət idarəçiliyi nəzəriyyəsi" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |
| - Davamlı və inklüziv inkişafın müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindən olmasını bilmək; dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahını yüksəldilməsini təmin edən inklüziv inkişafı təmin edən amillərini və onların idarəetmə yollarını bilmək; beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilləri araşdıra bilmək; davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarəedilməsi sahəsində bilik və bacarıqlara yiyələnmək. (PK-16) |

| "Informasiya kommunikasiya texnologiyaları" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək. (PK-5) |
| - İşində ümumi porifilli və ixtisaslaşdırılmış proqaram təminatından (Excel, Word, Power Point, Photoshop və ya analitik proqramlardan hər hansı biri ilə (SPSS, Stata, Python kimi proqramlarla) işləmək, sadə analizləri eməyi bacarmalı; (PK-6) |

| "Statistika” fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək. (PK-5) |
| - İqtisadi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq; (PK-7) |

| “Menecment” fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9) |
| - Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilməli, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmalı, eləcə də komanda işinin qurulmasını bilməli; liderlik prinsiplərini anlamalıdır; (PK-11) |

| "Siyasi elmin əsasları" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Siyasətin əsas formalarını bilmək; Politologiya və onun cəmiyyətdə rolu ilə bağlı baza biliklərinə yiyələnmək; Siyasi partiya və onun əsas funksiyalarını bilmək; Dövlət siyasətinin əsaslarını və yeni dövr dövlət siyasətinin aspektlərini bilmək; Beynəlxalq münasibətlərin müasir inkişaf istiqamətlərini bilmək; Milli təhlükəsizliklə bağlı biliklərə yiyələnmək; (PK-15) |

| "İnsan inkişafının əsasları” fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Inkişaf anlayışı və ölkə, ərazilərin hazırkı və gələcək inkişafının qiymətləndirilməsini bilmək; İnsan potensialının formalaşması siyasətini bilməli, biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi bacarığına yiyələnməli; İnsan inkişafı və ekoloji sivilizasiya naminə iqtisadi, sosial və təbii ətraf mühitin idarə edilməsi bacarıqlarına yiyələnməli; Davamlı insan inkişafını qiymətləndirən əmsal göstəricilərin hesablanmasını bilmək (PK-14) |
| - Yerli və daha yüksək səviyyələrdə inkişafın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı; (PK-21) |

| "Bələdiyyə idarəçiliyi" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Bələdiyyə idarəçiliyinin təşkili prinsiplərini, bələdiyyə xidməti təşkilatların xüsusiyyətlərini bilmək; bələdiyyə xidmətində səmərəliyin artırılması imkanlarını bilmək; yerli özünüidarəetmə orqanlarında fəaliyyətin planlaşdırılması metodlarını bilmək və funsiyonal təhlilləri aparmağı bacarmaq, gələcəkdə bərqərar olacaq IV sənaye inqilabının qeyri-müəyyənliklərini bilmək və bələdiyyənin missiyasını, niyyətini, məqsəd və strategiyasını müəyyən etməyi yiyələnməlidir; (PK-13) |
| - Dövlət və bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; Dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatı mənimsəmək, dövlət qulluğu vəzifəsi və dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluğunun qanunvericilik bazasını bilmək; dövlət idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək. (PK-17) |

| “Regional idarəetmə" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|

| |
|---|
| - Regional idarəetmənin xüsusiyyətlərini və regional problemləri bilmək; regional idarəetmənin elmi əsaslarını bilməklə, ərazi və sahə idarəedilməsinin təşkili bacarıqlarına yiyələnmək; regional idarəetmədə qabaqcıl təcrübəni mənimsəmək, regional idarəetmə metodlarını, elmi-texniki tərəqqinin regional idarəedilməsi formalarını bilmək. (PK-19) |

| **“Dövlət qulluğu” fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |
| - Dövlət və bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; Dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatı mənimsəmək, dövlət qulluğu vəzifəsi və dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluğunun qanunvericilik bazasını bilmək; dövlət idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək. (PK-17) |

| **“Dövlət idarəçiliyində etika" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |
| - Dövlət və bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; Dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatı mənimsəmək, dövlət qulluğu vəzifəsi və dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluğunun qanunvericilik bazasını bilmək; dövlət idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək. (PK-17) |

| **"Davamlı və inklüziv inkişafın idarə edilməsi" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - Inkişaf anlayışı və ölkə, ərazilərin hazırkı və gələcək inkişafının qiymətləndirilməsini bilmək; İnsan potensialının formalaşması siyasətini bilməli, biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi bacarığına yiyələnməli; İnsan inkişafı və ekoloji sivilizasiya naminə iqtisadi, sosial və təbii ətraf mühitin idarə edilməsi bacarıqlarına yiyələnməli; Davamlı insan inkişafını qiymətləndirən əmsal göstəricilərin hesablanmasını bilmək (PK-14) |

| |
|---|
| - Davamlı və inklüziv inkişafın müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindən olmasını bilmək; dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahını yüksəldilməsini təmin edən inklüziv inkişafı təmin edən amillərini və onların idarəetmə yollarını bilmək; beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilləri araşdıra bilmək; davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarəedilməsi sahəsində bilik və bacarıqlara yiyələnmək. (PK-16) |
| - Yerli və daha yüksək səviyyələrdə inkişafın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı; (PK-21) |

| **“İnsan resurslarının idarə olunması" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İdarəetmə və təşkilatla bağlı baza səciyyəli biliklərə, təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasını müəyyən etməyə yiyələnmə və IV sənaye inqilabı dövrünün qeyri müəyyənliklərini bilmək, münaqişəli situasiyaların qarşını almağı və onları həll etməyi, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək üçün lazımi biliklərə sahib olmaq; (PK-10) |
| - İnsan resurslarından səmərəli istifadə etməyə və kollektivdə əlverişli sosioloji-psixoloji mühit yaratmağa yiyələnməli; Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilməli, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də həm iş üçün, həm də təşkilatlara rəsmi müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmalıdır.(PK-18) |

| **“Strateji idarəemə" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9) |
| - Strateji idarəetmənin məktəblərini bilmək və situasiyaların strateji təhlilini aparmaq bacarmaq; qloballaşmanın strateji aspektlərini mənimsəmək; təşkilatın niyyət və məqsədlərini müəyyənləşdirməyi bacarmaq; strateji idarəetmə üsullarina yiyələnməklə, gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasını vaxtında verə bilmək bacarığını yaratmaq.(PK-20) |

| **“Milli təhlükəsizlik” fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - Siyasətin əsas formalarını bilmək; Politologiya və onun cəmiyyətdə rolu ilə bağlı baza biliklərinə yiyələnmək; Siyasi partiya və onun əsas funksiyalarını bilmək; Dövlət siyasətinin əsaslarını və yeni dövr dövlət siyasətinin aspektlərini bilmək; Beynəlxalq münasibətlərin müasir inkişaf istiqamətlərini bilmək; Milli təhlükəsizliklə bağlı biliklərə yiyələnmək; (PK-15) |

| **“İşgüzar yazışmalar" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İnsan resurslarından səmərəli istifadə etməyə və kollektivdə əlverişli sosioloji-psixoloji mühit yaratmağa yiyələnməli; Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilməli, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də həm iş üçün, həm də təşkilatlara rəsmi müraciət qaydalarını, peşəkar CV, |

| |
|---|
| rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmalıdır.(PK-18) |

| “Kommersiya fəaliyyətinin əsasları" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, ictimaiyyətlə əlaqələr sahəsində işlərin həyata keçirilməsi qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; (PK-3) |
| - İdarəetmə və təşkilatla bağlı baza səciyyəli biliklərə, təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasını müəyyən etməyə yiyələnmə və IV sənaye inqilabı dövrünün qeyri müəyyənliklərini bilmək, münaqişəli situasiyaların qarşını almağı və onları həll etməyi, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək üçün lazımi biliklərə sahib olmaq; (PK-10) |

| “İdarəetmə qərarları " fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |
| - İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9) |

| “Dövlət sahibkarlığı " fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |

| “Dövlət təşkilatlarında menecment " fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Dövlət idarəçiliyinin inkişaf mərhələləri və bu istiqamətdəki düşüncə məktəblərini bilmək; dövlət idarəetməsinin təşkili prinsiplərini və innovativ texnologiyalarını bilmək; dövlət xidməti təşkilatlarının xüsusiyyətlərini, sahibkarlıq fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi yollarını bilmək; dövlət təşkilatlarında fəaliyyətin planlaşdırılması metodlarını, məqsədlərin müəyyənləşməsi prinsiplərini, xidmətdə nəticəyönümlülüyünün qiymətləndirilməsini bacarmaq. (PK-1) |
| - İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı |

| |
|---|
| mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9) |
| - İdarəetmə və təşkilatla bağlı baza səciyyəli biliklərə, təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasını müəyyən etməyə yiyələnmə və IV sənaye inqilabı dövrünün qeyri müəyyənliklərini bilmək, münaqişəli situasiyaların qarşını almağı və onları həll etməyi, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək üçün lazımi biliklərə sahib olmaq; (PK-10) |
| - Dövlət və bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; Dövlət qulluğunun idarəetmə orqanlarını və onların təsnifatı mənimsəmək, dövlət qulluğu vəzifəsi və dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluğunun qanunvericilik bazasını bilmək; dövlət idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək. (PK-17) |

| **“İdarəetmənin sosialogiyası və psixologiyası" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İnsan resurslarından səmərəli istifadə etməyə və kollektivdə əlverişli sosioloji-psixoloji mühit yaratmağa yiyələnməli; Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilməli, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də həm iş üçün, həm də təşkilatlara rəsmi müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmalıdır.(PK-18) |

| **“Firmanın iqtisadiyyatı " fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, sosial sferanı, əsas sosial iqtisadi göstəriciləri, ətraf mühitin iqtisadiyyatını, problemləri, prosesləri və onların idarə olunmasının bilmək; (PK-2) |
| - Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, ictimaiyyətlə əlaqələr sahəsində işlərin həyata keçirilməsi qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; (PK-3) |

| **“Dövlət xəzinədarlığı" fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; büdcə gəlirlərinin formalaşdırılması, onların xərc maddələri üzrə bölüşdürülməsi, kassa icrasının yerinə yetirilməsi, pul-kredit sistemi, siyasətin (fiskal, monetar və s.) əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq (PK-8) |

| **“Azərbaycan iqtisadiyyatı” fənni üzrə peşə kompetensiyaları (PK)** |
|---|
| - İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, sosial sferanı, əsas sosial iqtisadi göstəriciləri, ətraf mühitin iqtisadiyyatını, problemləri, prosesləri və onların idarə olunmasının bilmək; (PK-2) |
| - Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, ictimaiyyətlə əlaqələr sahəsində işlərin həyata keçirilməsi qarşılıqlı |

| |
|---|
| əlaqələrin fərqli senarilərini bilmək; (PK-3) |
| - Makroiqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, xarici ticarət əlaqələri, dövlət tənzimlənməsi, idarəetmə, sosial-iqtisadi problemlər, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq; (PK-4) |

| "Koorporativ idarəetmə" fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-9) |

| " İctimaiyyətlə əlaqələr " fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
| - Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, ictimaiyyətlə əlaqələr sahəsində işlərin həyata keçirilməsi qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; (PK-3) |

| " İnnovasiya menecmenti " fənni üzrə peşə kompetensiyaları (PK) |
|---|
